

# 26 sentyabr ümumxalq səsverməsi (referendum) günüdür



1995-ci il noyabrın 12-də Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək ümumxalq səsverməsi yolu ilə müstəqil dövlətimizin Konstitusiyasını qəbul etdi. Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla, ulu öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindəndir. Tariximizə Heydər Əliyevin Konstitusiyası kimi daxil olan Əsas Qanunun qəbulu cəmiyyət həyatında demokratik dəyişikliklərə böyük yol açdı, bütün sahələrin inkişafına təkan verdi, xalqın tarixi ənənələrinə, milli və mədəni dəyərlərinə uyğun olan, eyni zamanda, ölkədə müasir dünyəvi və vətəndaş cəmiyyəti quruculuğu tələblərinə cavab verən dövlətçiliyin formalaşması, siyasi və hüquq sistemlərində sabit özülün yaradılması işində mühüm addım oldu.



# Abşeron özünəməxsus inkişaf dinamikası ilə seçilir

# Referendumun rayonda demokratik, ədalətli və fəal keçirilməsi üçün hər cür şərait yaradılıb

## Başlıca hədəf dövlət idarəetmə sistemini daha da təkmilləşdirməkdir

Konstitusiyaya zaman-zaman bəzi əlavə və dəyişikliklərin edilməsi, onun müasir tələblərə uyğunlaşdırılması demokratik inkişaf yolunda olan bütün dövlətlər üçün səciyyəvi haldır. Çünki normativ-hüquqi aktların, qanunların istinad yeri olan, cəmiyyətin hüquq sisteminin əsasını təşkil edən Konstitusiya xalqın və dövlətin inkişaf prioritetləri ilə yanaşı, ölkənin zamanla uzlaşan inkişaf xüsusiyyətlərini, obyektiv sosial tələbata çevrilən yenilikləri özündə əks etdirməli, insan və vətəndaş hüquq və azadlıqlarına daha etibarlı təminat mexanizmləri formalaşdırmalıdır.

1995-ci ildən sonra ölkəmizdə iki Konstitusiya islahatı aparılıb. İlk dəfə 2002-ci ildə Azərbaycanda konstitusion dəyişikliklərə yaranan ehtiyac məhz bütün sahələrdə qabarıq nəzərə çarpan sürətli inkişafdan irəli gəlirdi. Həmin dəyişikliklər məhkəmə islahatlarına, Milli Məclisin fəaliyyətinin, seçki sisteminin təkmilləşdirilməsinə, insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsinə xidmət etmişdir.

Növbəti dəfə 2009-cu il martın 18-də Konstitusiyaya əlavə və dəyişikliklərə münasibəti öyrənən ümumxalq səsverməsi Azərbaycan xalqının demokratikləşmə və liberallaşmaya xidmət edən, insan hüquqlarının qorunmasında əlavə imkanlar açan islahatları dəstəklədiyini bir daha təsdiqlədi. Yeni əlavə və dəyişikliklər mahiyyətcə Konstitusiyanın daha da təkmilləşməsinə, insan və vətəndaş hüquq və azadlıqları ilə bağlı prinsipial əhəmiyyətli məsələlərin bu sənəddə daha dolğun ifadəsini tapmasına xidmət etməklə yanaşı, onun müddəalarının liberallığı, demokratik səciyyə daşıması ilə seçildi.

Ötən 7 ildə Azərbaycan dinamik inkişaf etmiş, ölkənin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında əsaslı dəyişikliklər baş vermişdir. Beynəlxalq təcrübəyə əsasən demək olar ki, dövrün tələblərinə uyğun şəkildə dövlət idarəçilik sisteminin təkmilləşdirilməsi, icra hakimiyyəti orqanlarının fəaliyyətinin yenidən təşkili, ictimai münasibətlərin tənzimlənməsi və digər bu kimi məsələlərin həlli ilə bağlı islahatların həyata keçirilməsi zəruri praktikadır. Bu mənada Prezident İlham Əliyev tərəfindən təqdim olunan və sentyabrın 26-da ümumxalq səsverməsinə çıxarılacaq “Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında” Referendum Aktının layihəsi olduqca əhəmiyyətlidir və ən əsası isə idarəçilikdə yeni məqamları özündə ehtiva edir. Belə ki, Konstitusiyaya təklif olunan dəyişikliklərin başlıca hədəfi dövlət idarəetmə sistemini daha da təkmilləşdirmək, mərkəzi icra hakimiyyətinin səmərəli fəaliyyətini təmin etmək, iqtisadi sahədə islahatlar kursuna uyğun yeni çevik və effektiv idarəetmə mexanizmini formalaşdırmaqdır.

## Ölkədəki inkişaf Abşeronun timsalında aydın müşahidə olunur

Hazırda ölkənin hər yerində bu mühüm siyasi hadisə ilə əlaqədar hazırlıq işləri aparılır. Referenduma cəmi 6 gün qalır. Bu siyasi kampaniyanın bütün mərhələləri ilk gündən başlayaraq qanunvericiliyə və Mərkəzi Seçki Komissiyasının təsdiq etdiyi Təqvim Planına uyğun tam həyata keçirilməkdədir. Təşəbbüs qrupları təbliğat və təşviqatla məşğuldurlar. Abşeron rayonundakı müşahidələrimiz hazırlıq işlərinin, bütövlükdə referendum prosesinin rayonda Təqvim Planına uyğun davam etdirildiyini təsdiqlədi.

Abşerona, xüsusən bu rayonun inzibati mərkəzi olan Xırdalan şəhərinə hər dəfə daxil olar-olmaz diqqətimizi tamamilə başqa bir mənzərə çəkir. Bu da Abşeronun son illərdə tamamilə dəyişməsi, yüksəlişi, Azərbaycanın xüsusən sənaye baxımından inkişaf etməkdə olan rayonlarından birinə çevrilməsidir. Ölkənin hər yerində yaşanan inkişaf Abşeron rayonunun simasında aydın müşahidə olunur. Çünki respublikamızda aparılan uğurlu sosial-iqtisadi siyasət nəticəsində ötən 12 ildə ölkənin bütün bölgələri kimi, Abşeron rayonunun da hərtərəfli inkişafı üçün böyük işlər görülüb və bu işlər hazırda yüksək əzmlə davam etdirilir. Ona görə son illərin real mənzərəsi Abşeronun ölkənin əsas inkişaf və quruculuq ünvanlarından biri olduğunu təsdiq edir. Bu inkişaf Abşeronun qüruru olduğu qədər, ölkəmizdən kənarda Azərbaycanın gözəl tanıtımıdır.

Ölkə Prezidentinin birbaşa təşəbbüsü və himayəsi sayəsində son illərdə rayon ərazisində olduqca mühüm infrastruktur layihələri həyata keçirilmiş, möhtəşəm tikililərin təməli qoyulmuş və uğurla başa çatdırılmışdır. İstifadəyə verilən və yenidən qurulan səhiyyə və təhsil müəssisələri, uşaq bağçaları, yollar, yol ötürücüləri və yol qovşaqları, idman qurğuları, parklar, inzibati binalar rayonun simasını tamamilə dəyişmişdir. Bu dövrdə həm ayrı-ayrı dövlət proqramlarından, həm yaradılmış azad sahibkarlıq mühitindən irəli gələrək rayonda çoxsaylı xidmət və istehsal sahələri fəaliyyətə başlamışdır.

Bütün bunlar ondan xəbər verir ki, Abşeron rayonunda regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları uğurla icra olunur. O cümlədən, “2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı”nda nəzərdə tutulmuş Abşeronun qəsəbə və kəndlərində qaz kəmərlərinin yenidən qurulması, yeni yaşayış massivlərinin qazlaşdırılması, daşıyıcı qaz kəmərlərinin polietilen borularla tikilməsi, su təchizatının və kanalizasiya sisteminin yaxşılaşdırılması, əkin və həyətyanı sahələrin su təminatının yaxşılaşdırılması məqsədi ilə boru xətlərinin yenidən qurulması kimi vəzifələr uğurla yerinə yetirilmişdir.

Hazırda icra olunan yeni proqramlarda da Abşeronla bağlı mühüm bəndlər yer almışdır. Belə ki, “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na əsasən Abşeron rayonunda kimya, yeyinti və yüngül sənayenin, heyvandarlıq, zeytunçuluq, zəfərançılıq, üzümçülük və istixana şəraitində tərəvəzçilik sahələrinin inkişafının dəstəklənməsi, kənd təsərrüfatı istehsalının inkişafına xidmət edən infrastrukturun maddi-texniki bazasının möhkəmləndirilməsi vəzifəsi qoyulub. Proqrama əsasən, yerli əhəmiyyətli avtomobil yollarının tikintisi, yenidən qurulması, əsaslı təmiri, şəhərdaxili və qəsəbədaxili yolların asfaltlaşdırılması davam etdiriləcək. Həmçinin rayonda elektrik enerjisi, su və istilik təchizatının, rabitə, meliorasiya və irriqasiya xidmətlərinin yaxşılaşdırılması istiqamətində tədbirlər nəzərdə tutulur. Artıq bu işlərin bir qismi yerinə yetirilib. Digər işlər isə proqramın icra müddətində başa çatdırılacaq.

## Abad rayon, müasir şəhər

Bu gün Xırdalan şəhəri başda olmaqla Abşeronun hər kənd və qəsəbəsində dinamik quruculuq və abadlıq işləri həyata keçirilir. Cəmi bir neçə ilin ərzində Xırdalan şəhərində onlarla yeni inzibati və hündürmərtəbəli yaşayış binaları inşa olunmuş, sakinlərin istirahəti üçün parklar salınmışdır. Xırdalanın küçələrində göz oxşayan dayaqlar üzərində quraşdırılmış yaraşıqlı gecə işıqları, ictimai binaların, fərdi evlərin, xidmət obyektlərinin, həyət divarlarının fasadlarının milli ornamentlər və müasir üzlük materialları ilə işlənməsi şəhərin ümumi mənzərəsinə xüsusi gözəllik verir. Burada inşa olunmuş yüksək mərtəbəli yaşayış evləri, inzibati binalar, nəfis layihələr əsasında tikilib istifadəyə verilmiş sosial obyektlər, ticarət, iaşə və məişət xidməti müəssisələri şəhərin möhtəşəmliyini, müasirliyini əks etdirir.

2016-ci ilin ötən dövründə də həm bütövlükdə rayonda, həm də Xırdalan şəhərində hər bir sahə üzrə, xüsusən infrastrukturun yenilənməsində müsbət dəyişikliklər baş vermişdir. Məsələn, yol infrastrukturunun yaxşılaşdılrılması məqsədilə rayonun yaşayış məntəqələrində daxili yollara 30707 kubmetr qrabil tökülərək yayılıb, 45772 kvadratmetr sahə asfaltlanıb, 6468 poqonmetr səki daşı düzülüb, piyada səkilərinə 2600 kvadratmetr tamet döşənib. Rayonun daxili imkanları hesabına Hökməli-Qobu yolunun yararsız hala düşmüş hissəsində yağış və qrunt sularının avtomobil yoluna axmasının qarşısının alınması məqsədilə yol kənarı boyunca 900 metr uzunluğunda beton suötürücü və plastik boru ilə drenaj xətləri çəkilib. Yolun yararsız vəziyyətə düşmüş hissəsinə asfalt örtük verilməsi ilə bağlı rayon icra hakimiyyəti tərəfindən “Azəravtoyol” Açıq Səhmdar Cəmiyyətinə müraciət olunub və yaxın günlərdə yola asfalt örtük verilməsi təmin ediləcək.

Əhalinin sabit elektrik enerjisi ilə təminatından ötrü yaşayış məntəqələrində 37 ədəd yeni transformator quraşdırılıb, 22 ədəd transformator əsaslı təmir olunub, 2 ədəd yanmış transformator bərpa edilib, 323 ədəd dayaq və 54 min metr naqil dəyişdirilib, yaşayış məntəqələrində 57 min metr uzunluqda “SİP” kabelləşməsi aparılıb. Masazır kəndində yeni 2 dövrəli hava xətti çəkilərək istismara verilib, Fatmayı yarımstansiasından uzunluğu 3 km olan Mehdiabad-5 və uzunluğu 250 metr olan Fatmayı-4 elektrik verilişi xətti çəkilib. Aşağı Güzdək qəsəbəsində enerji təminatının yaxşılaşdırılması məqsədilə Ceyranbatandan gələn yüksək gərginlikli elektrik xəttində 70 ədəd elektrik dirəyi, 11 km uzunluğunda naqil yenisi ilə əvəz olunub.

RİH rəhbərliyinin Azərbaycan Respublikasının Prezidenti Administrasiyası və Nazirlər Kabinetinə etdiyi müraciətlərinin nəticəsi olaraq Qobu qəsəbəsində 110 kv-luq, Saray qəsəbəsində və Masazır kəndində hər birində 35 kv-luq olmaqla 3 yarımstansiyanın tikintisinə, Pirəkəşkül, Qobustan kəndlərində elektrik təchizatının yaxşılaşdırılması üçün 35 kv-luq Caylı və Cəngi yarımstansiyalarında yenidənqurma işlərinə başlanılıb.

2016-cı ilin ötən dövründə rayonun yaşayış məntəqələrində müxtəlif diametrli borularla 6264 p/m uzunluğunda yeni içməli su xətləri çəkilib, 3550 p/m uzunluqda korroziyaya uğramış xətt dəyişdirilib, 1980 ədəd su sayğacı quraşdırılıb, eləcə də 609 p/m uzunluğunda kanalizasiya xətləri yenilənib. Podratçı təşkilatlar tərəfindən Saray bağ massivində işlər yekunlaşdırılıb, Goradil, Fatmayı, Digah ərazilərində inşası yarımçıq qalmış quraşdırma işləri tikinti təşkilatları tərəfindən layihə üzrə davam etdirilib. “Azərsu” Açıq Səhmdar Cəmiyyətinə edilmiş müraciətin nəticəsi olaraq Pirəkəşkül kəndinə gedən içməli su xəttinin 2 km-lik hissəsi yeni borularla əvəz edilib və kəndin içməli su təminatı xeyli yaxşılaşdırılıb. Aşağı Güzdək qəsəbəsində 1600 metr su xətti çəkilib, yeni nasosxana tikilib, hazırda 1 km uzunluğunda plastik borularla birləşdirmə işləri həyata keçirilir. Saraydan Novxanıya gedən istismara yararsız hala düşmüş 300 mm-lik boru xəttinin 150 metrlik hissəsi təmir olunub. Hökməli qəsəbəsində 3 km uzunluğunda və Qobu qəsəbəsindəki yeni yaşayış massivində içməli su xəttinin çəkilişinə başlanılıb.

Bu gün rayonun ən ciddi problemlərindən biri Aşağı Güzdək və Saray qəsəbələrində mövcud göllərə kanalizasiya və çirkab sularının axıdılması və nəticədə göl ətrafında olan evləri su basmasıdır. Problemin həllinə köməklə bağlı aidiyyəti orqanlar qarşısında məsələnin qaldırılmasının nəticəsi olaraq artıq Aşağı Güzdək qəsəbəsində gölün səviyyəsinin aşağı salınması işlərinə başlanmışdır. Bu məqsədlə göl kənarında nasosxana quraşdırılması və suların Sumqayıt çayına axıdılması üçün 4 km uzunluğunda boru xəttinin çəkilişi işləri həyata keçirilir.

Rayon ərazisində fəaliyyət göstərən Samur-Abşeron kanalının istismar idarəsi tərəfindən hesabat dövründə xeyli işlər görülüb. Kanal vasitəsilə Ceyranbatan su anbarına 195 milyon kubmetr su vurulub. Samur-Abşeron kanalında 129 kubmetr beton təmir işləri aparılıb, 180 min kvadratmetr sahə təmizlənib, kanal üzərində 6 ədəd körpü təmir edilib, Ceyranbatan nasos stansiyasında əsaslı təmir işləri görülüb. Rayonun və Bakı şəhəri kəndlərinin əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi məqsədilə rayon suvarma sistemləri idarəsi tərəfindən 31 ədəd nasos, 587 metr iri diametrli metal boru xətləri təmir edilib, 33 km uzunluğunda kanal lil və məişət tullantılarından təmizlənib.

Bütün bunlar isə Abşeronun müasir rayona, Xırdalanın isə abad şəhərə çevrilməsinin təmin edilməsi istiqamətində mühüm addımlar olmuşdur. Onu da əlavə edək ki, Prezident İlham Əliyev tərəfindən verilən tapşırıqların əsasını rayon və şəhərlərdə dotasiyalardan asılılığın minimuma endirilməsi təşkil edir. Artıq 5 ildir ki, Abşeron rayonu dotasiya almadan bütün xərclərini yerli daxilolmalar hesabına maliyyələşdirir. Bu ilin birinci yarısının məlumatına əsasən, Abşeron rayon büdcəsinin yerli gəlirlər proqnozu 15 498 112 manata qarşı 15 891 036 manat və ya 102,5 faiz yerinə yetirilib, nəticədə büdcəyə nəzərdə tutulduğundan 393 min manat əlavə vəsait daxil olub.

## Seçkilərdə mütəşəkkil olan abşeronlular referendumda da əzmlə iştirak edəcəklər

Abşeron tək sosial-iqtisadi sahədəki uğurları ilə fərqlənmir. Ölkəmiqyaslı siyasi kampaniyalarda da fəal iştirak edən abşeronlular hər zaman ölkə rəhbərliyinin siyasi kursunu dəstəkləmişlər. Bununla yanaşı, indiyədək rayon üzrə seçkilər ən yüksək səviyyədə baş tutmuş, seçicilər layiqli namizədləri dəstəkləmişlər.

Bir neçə gündən sonra isə referendum keçiriləcək. Abşeronun hansı qəsəbəsinə getsən referendumla bağlı hazırlıq işlərinin getdiyini görmək mümkündür. Abşeron rayonu iki - 45 saylı Abşeron və 50 saylı Abşeron-Qobustan seçki dairələrini əhatə edir. 45 saylı Abşeron dairə seçki komissiyasının sədri Dilşad Abbasovanın sözlərinə görə, seçki dairəsində 36 seçki məntəqəsi mövcuddur. Bu məntəqələrin 12-də səsvermənin gedişini veb-kameraların vasitəsi ilə internetdən izləmək mümkün olacaq. Dairə seçki komissiyasında 46 min 607 nəfər seçici qeydə alınıb.

50 saylı Abşeron-Qobustan seçki dairəsində 49 seçki məntəqəsi mövcuddur ki, bunun 21-i Abşeron rayonunu əhatə edir. DSK-nın sədri Rafəddin Nağdaliyev bildirdi ki, bunların 4-də səsverməni internetdən izləmək mümkün olacaq. Bu seçki dairəsi üzrə qeydə alınmış seçicilərin sayı 45 min 322 nəfərdir ki, onların da 25 min 671 nəfəri Abşeron rayon sakinləridir.

Hər iki dairə üzrə bütün seçki məntəqələrinə baxış keçirilmiş, onların şəraiti və texniki vəziyyəti araşdırılmış, bütün lazımi texniki avadanlıqlarla tam təmin olunmuşlar. Ehtiyacı olan məntəqələrdə təmir işləri görülmüşdür. MSK tərəfindən seçki məntəqələri seçkiyə aid olan bütün zəruri əşyalarla - qutular, seyf, ultrabənövşəyi lampalar, mürəkkəb balonları, stol, stul, kreslo, generator, istilik radiatorları, fənər, dövlət rəmzləri olan bayraq, gerb, məlumat lövhələri və s. təchiz olunub. Refenduma çağırışla əlaqədar seçki məntəqələrinin yaxınlığında, əhalinin sıxlıq təşkil etdiyi yerlərdə təşviqat lövhələri yerləşdirilmişdir.

45 və 50 saylı seçki dairələri üzrə bu günə qədər seçkilərin gedişatını izləmək üçün 800-ə yaxın müşahidəçi qeydə alınmışdır. Həmçinin təşviqat qruplarının seçicilərlə görüşlərinin keçirilməsi, təbliğat və təşviqat işlərinin aparılması məqsədi ilə rayon ərazisində açıq və qapalı yerlər müəyyənləşdirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”nın icrası ilə əlaqədar 22-24 avqust tarixlərində dairə seçki komissiyasının üzvləri və məntəqə seçki komissiyalarının sədrləri üçün seçki hüququ üzrə ixtisaslaşdırılmış 3 günlük kurslar təşkil olunaraq keçirilib. MSK tərəfindən təsdiq olunan Təqvim Planına uyğun olaraq isə sentyabrın birinci ongünlüyündə məntəqə seçki komissiyalarının bütün üzvlərinin iştirakı ilə 4 günlük treninqlər keçirilib. Maarifləndirmə xarakteri daşıyan bu kurslar DSK və məntəqə seçki komissiyalarının üzvlərinin hazırlığının artırılmasında, seçki sahəsində onların bilik, bacarıq və işgüzar vərdişlərinin təkmilləşdirilməsində mühüm rol oynayacaq.

Abşeronlular hər bir seçkidə fəal iştirak ediblər. Müşahidələrimiz göstərdi ki, əvvəlki seçkilərdə mütəşəkkil olan abşeronlular qarşıdan gələn referendumda da əzmlə iştirak edəcəklər.

*Rəşad CƏFƏRLİ,*
*“Azərbaycan”*

















